*Yunis Qaraxanov*

## *Xocalı*

İyirmi üç ildir əsir bacıma,
Namusuma, arıma, baş tacıma,
Döz dedilər bu dəhşətli acıma,
De, axı, mən necə dözüm, Xocalı?

Əsir düşdü neçə qız-gəlin, ana,
Əsir düşdülər namərdə, düşmana,
İnim-inim inildədi topxana,
Yandırdılar qaldı közüm, Xocalı.

Söndürdülər neçə-neçə ocağı,
Öldürdülər cavan-qoca, uşağı,
Dağladılar, sinəmə çəkdilər dağı,
Ağrıdan qalmadı dözüm, Xocalı.

Faciədir, dəhşətdir bu, Allahım,
Çatmamışmı sənə bu fəryadım ahım?
Söylə axı, nəydi mənim günahım?
Qalmadı torpaqda izim, Xocalı.

Torpağımda at oynadan da dığa,
Göz yumurlar Avropa, Amerika.
Göz yumurlar alçaqlığa, nahaqqa,
Quruyubdur nitiqm, sözüm, Xocalım.

***Qaraxanov Y. Xocalı : şeir // Səs. – 2015. – 26 fevral.***